**Azərbaycan Respublikası Hökuməti ilə Almaniya Federativ Respublikası Yenidənqurma Kredit Bankı (KfW ) arasında "Kommunal infrastruktura təcili yardım proqramı" çərçivəsində kreditin ayrılması və layihənin maliyyələşdirilməsi haqqında Müqavilənin və həmin Müqavilə üzrə Xüsusi Sazişin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2000-ci il iyulun 21-də Almaniyanın Frankfurt-Mayn şəhərində Azərbaycan Respublikası Hökuməti ilə Almaniya Federativ Respublikası Yenidənqurma Kredit Bankı (KfW ) arasında imzalanmış "Kommunal infrastruktura təcili yardım proqramı" çərçivəsində kreditin ayrılması və layihənin maliyyələşdirilməsi haqqında Müqavilə və həmin Müqavilə üzrə Xüsusi Saziş **təsdiq edilsin.**

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Mənzil-Kommunal Təsərrüfatı Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Müqavilənin və həmin Müqavilə üzrə Xüsusi Sazişin həyata keçirilməsini təmin etmək üçün lazımi tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Müqavilənin və həmin Müqavilə üzrə Xüsusi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Almaniya Federativ Respublikası Yenidənqurma Kredit Bankını (KfW ) xəbərdar etsin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 23 noyabr 2000-ci il
576

Azərbaycan Respublikasının Qanunvericilik toplusu .- 2000.- 30 noyabr, № 11.- S.4682.